# "Nizami Gəncəvi almanaxı"nın dördüncü cildi




Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu tərəfindən"Nizami Gəncəvi almanaxı"nın dördüncü cildinəşr edilib. Almanaxmüasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi xadim Heydər Əliyevin 100 illik yubileyinə həsr olunub.

Nizamişünaslıq şöbəsininəməkdaşlarının və digər alimlərin araşdırmaları yer alan"-Nizami Gəncəvi almanaxı"nın dördüncü cildi Ədəbiyyat İnstitutunun Elmi Şurasının 30 mart2023-cü il tarixli qərarı ilə çap olunub.

Layihənin elmi rəhbəri AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, elmi redaktoru AMEA-nın müxbir üzvü Nüşabə Araslıdır. Məsul redaktorları filologiya üzrə fəlsəfə doktorları, dosentlər Zəhra Allahverdiyeva, Aygün Bağırlı və Yelena Teyerdir. Koordinatorları Samirə Əliyeva və Lalə Paşayevadır.

Dördüncü cild akademik İsa Həbibbəylinin "Nizami Gəncəvi ədəbi irsi: Heydər Əliyevdən - İlham Əliyevə" adlı yazısı ilə açılır. Nəşrdəümumilikdə 16 tədqiqatçının mövzu ilə bağlı məqalələri yer alıb. "Nizami Gəncəvi almanaxı"-nın bu nəşriNizami Gəncəvinin dövrü, həyatı və ədəbi irsinə yeni baxış, daha obyektiv elmi meyarlar əsasında yazılmış elmi məqalələri əhatə edir.

268 səhifəlik bu cild "Elm və təhsil" nəşriyyatında çap olunub. Qeyd edək ki, Nizami Gəncəvi almanaxlarının nəşr ənənəsi 1940-cı ildən başlayıb.

***Gülnar*** Səma
***Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,***
***İctimaiyyətlə əlaqələr şöbəsi***

Kredo .- 2023.- 12 sentyabr.- S.3.